AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

STRATEJİ İNKİŞAF VƏ KEYFİYYƏT TƏMİNATI BÖLMƏSİ
MEDIA VƏ İCTIMAİYYƏTLƏ ƏLAQƏLƏR BÖLMƏSİ

**"Media və ictimaiyyətlə əlaqələr bölməsinin fəaliyyəti barədə" sorğusunun nəticələrinə dair**

# HESABAT

Naxçıvan-2024

**KEÇİRİLMƏ TARİXİ: 27.02- 5mart 2024**

**KEÇİRƏN və CAVABDEH QURUM: Strateji inkişaf və keyfiyyət təminatı bölməsi**

**İŞTİRAKÇI GÖRÜNÜMÜ: Anonim**

**İŞTİRAKÇI SAYI: 73 NƏFƏR (digər media qurumları)**

NDU-nun Media və ictimaiyyətlə əlaqələr bölməsinin fəaliyyətinə dair keçirilən 2-ci sorğuda ümumilikdə 73 respondent iştirak edib. Qeyd edək ki, universitetin sosial şəbəkə hesabları (Facebook, Instagram, LinkedIn) üzərindən ictimaiyyətə açıq şəkildə keçirilən sorğu 1 həftə ərzində davam edib. Respondentlərin fikirlərini öyrənmək üçün sorğuda ümumilikdə 11 sual təqdim edilib. Sorğunun keçirilməsində məqsəd sosial şəbəkə hesablarının, universitet televiziyası ilə radiosunun, Yeni fikir qəzetinin fəaliyyətinin təkmilləşdirilməsi olub. Sosial şəbəkələrdə universitetin təbliğatı, izləyicilər arasında daha çox istifadə olunan sosial media hesabları, televiziya və radioda hazırlanan verilişlərin və videodərslərin formatı, bölmə tərəfindən ictimaiyyətə təqdim edilən foto və videomaterialların keyfiyyəti, Yeni fikir qəzetində dərc olunan məqalələrin janrları haqqında respondentlərin fikirlərini öyrənərək həmin tələblər əsasında yeniləmə işləri aparılıb.

Belə ki, sosial şəbəkə hesablarında rəsmi foto və videomaterialların izləyicilər üçün monoton olduğunu nəzərə alaraq keçirilən tədbirlərdən daha səmimi foto və videomateriallar hazırlanıb ictimaiyyətə təqdim olunur. Bunun nəticəsində universitetin sosial media hesablarında nəzərə çarpacaq dərəcədə artım müşahidə edilir. Bununla yanaşı sosial şəbəkələr üzərindən ictimaiyyətə çatdırılan informasiya və xəbərlərin daha qısa və dəqiq olması ilə bağlı izləyicilərin verdiyi cavablar da nəzərə alınaraq sosial media hesablarında məlumatların həcmi azaldılıb və universitetin rəsmi saytında məlumatın ətraflı oxunması üçün keçidlərdən istifadə edilir.

Televiziya və radio verilişləri, eyni zamanda videodərslərlə bağlı verilən cavablarda isə respondentlər veriliş və videomaterialların formatının olduğu kimi (maarifləndirici və elmi istiqamətli) davam etməsini bildiriblər.

Yeni fikir qəzetində isə əsasən elmi, publisistik məqalələrə üstünlük verilməsi ilə bağlı respondentlərin fikir üstünlüyü nəzərə alınıb.

**Strateji inkişaf və keyfiyyət təminatı bölməsinin müdiri: Ş.Kərimova**
**Media və ictimaiyyətlərlə əlaqələr bölməsinin müdiri: S.Ə.Əliyeva**